
Dinimiz milli-mənəvi sərvətimizdir.
Cəmiyyət və Din
TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi
№ 49 (136) 29 DEKABR 2011 - 11 yanvar 2012-ci il
www.scwra.gov.az

# XƏZƏR UNİVERSİTETİNİN TƏSİSÇİSİ VƏ QURUCUSU PROFESSOR HAMLET İSAXANLI: "DİN MƏNİM ÜÇÜN MƏDƏNİYYƏTDİR, TARİXDİR, KİMLİKDİR"



**- "Din dedikdə, ilk olaraq nə düşünürsünüz? Həyatınızın hansı anında hiss etdiniz: «Nə yaxşı ki, dinimiz var?»**

- Din, hər şeydən əvvəl inanc sistemidir. Fövqəlgücə, Allaha ibadət, müqəddəs sayılanlara dərin ehtiramdır. Din yaradılış, kainat və təbiət, həyatın mənası, əxlaqi, mənəvi və ruhi dəyərlər haqqında təsəvvürlər sistemidir. Digər tərəfdən, din tarixən təşəkkül tapmış mədəni sistemdir.

Mənim dinlə, daha doğrusu, islam dini ilə tanışlığım nənəm Zeynəblə başlayıb. O, çox mömin və saf bir insan idi. Gözü odlar görmüşdü. Gənc yaşında əri – mənim babam, məşhur Qaçaq İsaxan sovetlərə qarşı silahlı mübarizə etdiyinə görə öldürülmüşdü. Başsız qalan nəsil – uşaqlar və qadınlar Qazaxıstan və Qırğızıstana sürgün edilmiş, nənəmin sayəsində ayaq üstə qalmış və geri - vətənə qayıtmışdı. Mənim "Ziyarət" adlı poemamın baş qəhrəmanı da odur. "Kim kimi yaratdı" adlı bir şeirim də açıq deyir: mənim tanrım və dünyam nənəmdən gəlib.

Tələbə vaxtımdan başlayaraq riyaziyyatla yanaşı bəşər tarixini, o cümlədən mədəniyyət tarixini öyrənməyə başladım. İslam mədəniyyəti tarixinin nə qədər zəngin olduğunu gördüm. Kəlam, fəlsəfə, sufizm (təsəvvüf), islam dövrü elm, təhsil, ədəbiyyat və incəsənət tarixlərini öyrəndim, tədqiq etdim, islam elmi və mədəniyyətinin dünyaya böyük töhfələr verdiyini anladım və özüm də yazmağa başladım. O zamandan bu günə islam dünyasının tarixi və mədəniyyəti içindəyəm, bir günüm belə onsuz keçmir.

**- Müxtəlif mənəvi dəyərlərin universallaşdığı bir dövrdə din də universallaşa bilərmi? Sizcə, universal din necə ola bilər?**

- Tarixdə universal din yaratmaq cəhdləri olub. 3-cü türk-moğol hökmdarı Böyük Əkbər (1542-1605) dini xoşgörülü, xoşqılıqlı, tolerant olması ilə fərqlənirdi. O, müsəlman, hindu, zərdüşti, cayni, xristian-katolik dinlərə hörmət göstərirdi. Onun hətta "Din-i İlahi" adında universal bir din yaratmaq cəhdindən də söz açırlar. Hər halda, Əkbər müsəlman olmayanların cizyə vergisini ləğv etmiş, hindu və müsəlmanların yaxınlaşması siyasətini yürütmüş, bütün dinlərə məxsus bayram və mərasimlərin keçirilməsinə kömək etmiş, müxtəlif din nümayəndələrinin iştirakı ilə açıq müzakirələr keçirmişdi. Lakin bu vəziyyət onun hakimiyyətindən sonra davam etmədi. Bəhailər də universal din yaratmağa cəhd etdilər, lakin çox tərəfdar toplaya bilmədilər.

Ümumiyyətlə, universal din ola bilməz. Xalqlar, mədəniyyətlər, tarixlər çox müxtəlifdir, onları yeni bir inanc sistemində birləşdirmək mümkün deyil. Necə ki, universal dil mümkün deyil; esperanto deyilən süni dil yaradıldı, lakin bir nəticə hasil olmadı, çünki doğulub o dili daşıyan kimsə yoxdur. Məncə, universal dindən deyil, universal insani dəyərlər küllisindən, etik-humanistik sistemdən bəhs etmək olar. İnsanlara onların dinindən, irqindən, dilindən asılı olmadan xoş münasibət bəslənən, qayğı göstərilən, ədalət və barış içində yaşanılan bir dünya təsəvvür edin.

**- Hərə öz Allahını axtarır, bu, müdriklik əlamətidir, mənəvi tələbat, yoxsa zəiflik?**

- İnsan dini və mədəni hisslərlə doğulmur. O, əvvəlcə başqalarının təsiri ilə Allaha gəlib çıxır, ailə və ətraf mühitin təsiri ilə mədəniyyətin ünsürlərini anlamağa və mənimsəməyə başlayır. Yuxarıda demişdim: "mən onun, nənəmin allahını sevdim". Doğrudur ki, İbn Tufeylin məşhur "Hayy ibn Yazqan" kitabında və bəzi digər əsərlərdə doğumundan bir adada

təkbaşına yaşayan insanın, heç bir cəmiyyətin üzvü olmayan, insan üzü görməyən bir şəxsin öz-özünə Allaha və dini görüşlərə gəlib çıxdığı deyilir. Lakin bu, nəzəriyyədir. Həyatda mənəvi-mədəni dəyərlər əsasən təqlid, ətrafdan götürmək yolu ilə əldə edilir.

Xeyirlə yanaşı şər də özünə yol açır. Get-gedə, dünyanı daha yaxşı başa düşdükcə insanın hər şey barədə öz fikri əmələ gəlir. İnsanın təbiəti formalaşır. Bu təbiətdə hər şey var: sevgi və ehtiraslar, arzu və istəklər, qorxu və hünər, kədər və sevinc...İnsan öz ədalət hissi, həqiqət anlayışı, şəfqət duyğusu, öz qüdrəti və kövrəkliyi ilə öz dünyasını yaradır. Onun öz daxili aləmi, öz dəyərlər sistemi var, öz Allahı var, o, həmin Allaha sığınır, ona qovuşmağa çalışır, ona qulluq edir. Bu, nə müdriklikdir, nə mənəvi tələbatdır, nə də zəiflik. Bu, insan təbiətidir.

**- Sizcə, məbədə yol arxada qalıb, yoxsa irəlidədir? Əgər Sizdən soruşsalar ki, Hamlet müəllim, məbədin yolu haradandır, necə bələdçilik edərdiniz?**

- İnsanın duyğu və düşüncə aləmi var. O, hərdənbir üzə çıxır, ətrafdakılara ya sevinc bəxş edir, ya qəm gətirir, ya da heç nə gətirmir. Lakin duyğu və düşüncənin qapalı, görünməyən hissəsi də var. Əslində aysberqin, buz dağının görünməyən, altda qalan hissəsi daha böyük, bir çox hallarda qat-qat böyük olduğu kimi, insanın duyğu və düşüncə aləmi də onun içindədir, görünən hissəsindən xeyli böyükdür. Nə düşüncə, nə də duyğu mühakimə oluna bilməz. Azad insanın duyğu və düşüncələri başqalarına xoş görünməyə bilər, lakin burada heç bir suç görünmür. Şər duyğu və ya bəd düşüncə yoxdur. İnsanın azad olması birinci növbədə onun azad duyğularında və sərbəst düşüncəsindədir. Azadlıq ləyaqətin təməlidir. Lakin insanın ətrafa təsiri məsələsi ortaya gələndə, birinci mühüm məsələ əməldir. Əməl insanın tək özü üçün deyil, ətrafdakılara da birbaşa aiddir. Yaxşı əməl ətrafdakılara xeyir verir, cəmiyyətin tərəqqisinə kömək edir.

Məbədin yolu uzundur, geridə deyil. İnsanın əməlləridir o yol. Əməl – bir tərəfdən məsuliyyətdir, vəzifədir, digər yandan insanı öz xoşbəxtliyinə aparan yoldur. Düşüncə, söylədiyim kimi, azaddır. Əməlin isə xeyirli və şər olanı var, xoş və bəd əməl var.

**- Din nə zaman mədəniyyət, nə zaman xurafat və nə zaman fanatizmdir? Bu meyllərin dərkində oxucularımıza, xüsusilə də müxtəlif dini cərəyanların fəallaşdığı bir zamanda öz yerini tapa bilməyənlərə, aldananlara nə məsləhət verərdiniz?**

- Din mənim üçün mədəniyyətdir, tarixdir, kimlikdir. İbadət, dini ayinlərə əməl etmək gözəldir, təki onlar ürəkdən, mənəviyyatdan, əxlaqdan gəlsin, xeyirdən, fəzilətdən, sevgidən qidalansın. Düşünürəm ki, insan ibadətsiz də yaşaya bilər və yaxşı insan ola bilər, saf, xeyirxah, ədalətli ola bilər, gözləri və qulaqları, beyni və ürəyi dünyaya açıq ola bilər. Qapalıfikirli, özünü və uydurma dəyərlərini mərkəzə qoyan dindar adam mömin deyil, mövhumatçıdır, cahildir, öz xurafatı ilə özünə də, ünsiyyətdə olduğu insanlara da ziyan vurur. Gözü dünyanı görməyən, gözünü mövhumat örtən, başqa dinə mənsub olanları düşmən sayan, öz əqidəsinə sadiqliyi həddini aşan, tənqidi düşüncədən məhrum olanların dini fanatizmdir. Dini fanatizm dini fundamentalizmin ifrat, eybəcər şəklidir. "Özgə" olana qarşı hörmətsizlik, saymamazlıq sadəgə biganəlik deyil, bu, zorakılığın bir növüdür. Çörçill (Winston Chirchill) "fanatik o kəsdir ki, o, öz fikrini dəyişməyə qadir deyil və öz mövzusunu, obyektini heç vaxt dəyişmir" deyirdi.

Məncə fanatizm və xurafat bir tərəfdən uşaqlıqda və ya gənclikdə təsirə düşməkdən qidalanırsa, digər yandan həyatda özünə yer tapa bilməməkdən irəli gəlir. Mənalı bir işlə məşğul olan, özünə və başqalarına fayda verən, dünyanı anlamağa çalışan, sevən və sevilən insan hansı dinə mənsub olursa olsun, dindar, mömin və ya dinə çox inanmayan olsun, fərqi azdır, o, nə xurafata tabe olacaq, nə fanatizm onun həndəvərinə yaxın gələ biləcək. Dünyada o qədər gözəl şeylər var ki! Dünyanın sirlərini anlamağa çalışmaq, dünyanın nəbzini duymağa can atmaq – insanın əsas vəzifələrindən biri deyilmi? Gözəlliklər, sirrlər dünyasına daxil olan oradan çıxmaq istəməyəcək...

**- Cəmiyyət üçün yaxşı azərbaycanlı kimi formalaşmaqdan ötrü dindar olmaq vacibdir? Azərbaycançılıq düşüncəsində dinin yerini necə görürsünüz?**

- Məncə, yaxşı azərbaycanlı dindar ola da bilər, olmaya da. O, ateist də ola bilər. Yaxşı azərbaycanlı nəyə deyirik? Birinci növbədə yaxşı insana, sonra Azərbaycan kimliyini, mədəniyyətini özündə daşıyana, bəşəri və milli dəyərləri özündə qovuşduran insana. Bir də ki, insanın dinə münasibəti, dindarlığı, möminliyi onun tərbiyəsindən, böyüdüyü və yaşadığı mühitdən, peşəsindən və digər keyfiyyətlərdən qaynaqlanır. Dünyagörüşü və dini baxışlar tez-tez dəyişmir, onlar davamlı, qərarlı, oturmuş inanc, bilik və duyğular sistemidir. Mirzə Kazım bəy gəncliyində missionerlərin təsirinə düşüb, xristian dinini qəbul etdi. Amma bütün həyatını İslam dünyasının tədqiqinə, Rusiyada şərqşünaslıq məktəbinin təşəkkül tapmasına və inkişafına həsr etdi. O, İslam dünyasının iqtisadi, siyasi və texnoloji geriliyində islam dinini günahlandıranlara qarşı çıxır, geriliyi dində deyil, siyasi-tarixi səbəblərdə aramağı düzgün sayırdı. Görürsünüzmü, xristian bir azərbaycanlı yaxşı bir azərbaycanlı ola bilərmiş. Mənə elə gəlir ki, Mirzə Kazım bəy missionerlərin təsirinə düşmədən müsəlman olaraq qalsaydı, sonralar, Rusiyada xristian

mühitində çalışmasına baxmayaraq, dinini dəyişmək fikrinə düşməzdi. Din dəyişməyin mənəviyyatla bağlı olmadığını düşünürəm.

Azərbaycançılıq düşüncəsində, ümumiyyətlə hər hansı millətin düşüncəsində din həm müsbət, həm mənfi rol oynaya bilər. Din ədalətə çağırır, zəifə kömək etməyi tövsiyə edir, pis əməllərdən çəkindirir, əxlaqı saflaşdırır. Bu çox yaxşıdır. Xüsusilə, iradəsi zəif olan insanlara, yolunu çaşanlara, tövbə etmək istəyənlərə din əlini uzadır, onlara ayaq üstə qalxmağa kömək edir. Lakin dini siyasiləşdirmək istəyənlər, dindən təməl insan haqları və insan azadlığını ciddi surətdə məhdudlaşdırmaq üçün istifadə edənlər, dini təriqətləri dindən daha mərkəzə yerləşdirənlər, dini fanatizmə qapılanlar, başqa dinlərə qarşı təcavüzkar olanlar... dini təzyiq vasitəsinə, hökmranlıq alətinə çevirir, bununla da cəmiyyətdə ayırıcılıq və ayrıçılıq siyasətini qızışdırırlar. Azərbaycanlı düşüncəsində dinin başlıca əxlaqi-mənəvi dəyərlər sistemi kimi yer tutmasını arzu edirəm.

**- İqtisadi cəhətdən inkişaf etmiş ölkələrin din xadimləri çox rahatsızdırlar ki, dindarlıq zəifləyir. Son iki yüz il Qərb filosofları arasında belə bir fikir də yaşayır ki, din – yox olmağa məhkumdur. Dünya dini liderlərinin Bakı sammitində Moskva və Bütün Rusiyanın patriarxı Kirill bu fikri təkzib etmiş və dini dəyərlərin həmişəyaşarlığını bildirmişdi. Hamlet İsaxanlının fikri müasirlərimiz üçün maraqlıdır: söylənənlər maddiyyatın mənəviyyat üzərində üstünlüyüdür, yoxsa mənəviyyatın maddiyyat qarşısında zəifliyi?**

- Zənnimcə, din heç vaxt yox olmaq təhlükəsi ilə qarşılaşmayıb. Sadəcə, əvvəllər din tək əxlaqi-mənəvi dəyərlər küllisi olan inanc sistemi deyildi, o, həm də hakimiyyət idi, idarə edirdi, Qərb dünyasında hətta cəza aparatı idi (inkvizisiyanı yada salın). Çağdaş zamanımızda dünyanın çox böyük qismində din dövlətdən ayrılıb. Din öz siyasi və dövləti idarəetmə funksiyalarını itirib. Bu baxımdan dinin cəmiyyətə təsir gücü bir qədər azalıb. Lakin inanc sistemi kimi, Allaha və peyğəmbərlərə sevgi kimi, mənəfi saflığa, insaniliyə çağırış kimi, insanın sığınmaq istədiyi qüvvə kimi din qətiyyən yoxa çıxan deyil. Din insanların çox hissəsinə onların ürəklərindən keçən xoşbəxt sonluğu vəd edir və ora gedən yolu göstərir, ruhu qidalandırır. Hətta ən Allahsız dövlət olan Sovet İttifaqında dindarlar və möminlər az deyildilər.

Zənnimcə, dinə münasibətdə maddiyyatın gücü dağıdıcı rol oynamır. Əlbəttə, maddiyyatla mənəviyyat heç də həmişə dost deyillər. Lakin bəlkə paralel fikir də doğrudur – onlar heç də həmişə düşmən deyillər. Din maddiyyatla mənəviyyatı barış içində olmağa çağırır, maddi nemətlərin halal yolla əldə edilməsini istəyir, mənəvi dəyərlərin unudulmamasını istəyir, maddi və fiziki cəhətdən güclü olanın zəifə kömək etməsini istəyir. Ürəyində həqiqi Allah sevgisi olanlar, iman sahibləri, eləcə də sadəcə humanist insanlar mənəvi həzzi maddiyyata dəyişə bilməzlər.

**- Xeyirli-şərli ömür yaşayırıq və bu yolumuz mollasız keçmir. Müasir mollanı necə təsəvvür edirsiniz? Və gələcəyin mollasını necə görmək istərdiniz?**

Sovet dövründə, kənddə orta məktəbin yuxarı siniflərində oxuduğum zamanlar mollalara böyük hörmətim vardı. Onlar əhaliyə xidmət göstərir, ölülər və dirilərlə bağlı mərasimləri yoluna qoyur, inanc sahiblərinə bir rahatlıq bəxş edirdilər. Sovetlər dağılandan sonra vəziyyət dəyişdi. Çoxlu yeni mollalar əmələ gəldi. Əvvəllər kommunist olan, dini söyən bəzi insanlar mollalıq etməyə başladılar... Ümumiyyətlə isə, mollalar bəzi dini mərasimlərin aparılasına kömək edirlər. Lakin onların savadı, xoşrəftar olması mühümdür. Bir də, onlar məclislərdə hamıya ağıl vermək istəyəndə yaxşı olmur. Molla savadlı olması ilə yanaşı davranış mədəniyyəti, təvazökarlığı və əxlaqı ilə seçilməlidir. Molla İslamı layiqincə təqdim etmək iqtidarında olmalıdır. Bu belə olmasa, Azərbaycan ədəbiyyatını yada salın, mollalar tənqid atəşindən xilas ola bilməyəcəklər.

**- Yas və toy mərasimlərimiz barədə hansı təklifləri verərdiniz? Bəzi adətlərimizin düzəlişə ehtiyacı var. Nə məsləhət görərdiniz?**

- Toy və yas mərasimlərini tənzimləməyə böyük ehtiyac var. Toy mərasimlərindəki israfçılıq, müəyyən yekəxanalıq və ucuz şöhrət hissi, şadlıq evlərinin insafsız və monopolist yanaşması, eləcə də yas mərasiminin yas içində olan ailəyə münasibətdə əziyyətverici tərəfləri böyük təəssüf hissi və narahatlıq doğurur. Onların müzakirəsi və yeni qaydaların işlənilməsi işində Qafqaz müsəlmanları idarəsi, Dini qurumlar üzrə dövlət komitəsi, Milli Məclis, media və ictimaiyyət nümayəndələri öz sözlərini deməlidir. Bu asan iş olmasa da, həll oluna bilən dir. Toy və yas mərasimləri həm də mədəniyyətin tərkib hissəsidir; mərasim mədəniyyəti xalqın maddi və mənəvi xəzinəsində yer tutur. Mədəniyyəti korlamaq, xoşagəlməz şablonlara tabe etmək olmaz.

**- Nikah yaşına çatmamış qızların ailə həyatı qurması cəmiyyətin düşkünlüyüdür, yoxsa «şəxsi iş»?**

- Mən tanış və dost ailələrdə, Xəzər Universitetində və ictimai yerlərdə zarafatla "qızlar, qəti surətdə tez ərə getməyin" deyə ortalığı bir balaca qarışdırıram. Həmin an fərqli cavablar alıram. Əksəriyyət, xüsusilə gənc qızlar mənimlə həmfikir olsalar da, bəzi

analar etiraz edirlər - qız uşağı tez ailə qursa yaxşıdır - deyirlər. Mən də ciddiləşirəm və qızların dünyanı yaxşı anlamaları, bir sənət sahibi olmaları, həyatda öz yerlərini tapmaları həyati vacib məsələlərdir - deyə, fikrimi davam etdirirəm. Belə olan halda qızların ailə qurmaq yolunda düzgün qərar qəbul etmə imkanlarının artdığını deyirəm. Tələsik, nikah yaşına çatmamış və ümumiyyətlə, nisbətən az yaşlı qızların ailə həyatı qurması bir sıra hallarda bu ailənin dağılmasına gətirib çıxarır, çünki evlənənlərin bir-birini yaxşı tanımağa təcrübələri, vaxtları və imkanları olmayıb. Sən demə, onlar ya xarakter, ya mədəni səviyyə və dünyagörüşü baxımından, ya digər bir səbəb üzündən bir-birinə uyğun deyillərmiş. Nikah yaşına çatmamış və azyaşlı qızların ərə verilməsi, yəqin ki, köhnəliyin qalıqlarından biridir.

**- Gəlin, təsəvvürümüzdə cəmiyyətin fonunda bir üçbucaq modeli canlandıraq. Üçbucağın bir bucağında fizika-riyaziyyat elmləri doktoru, professor Hamlet İsaxanlı, ikinci bucağında zərif şeirlər müəllifi Hamlet İsaxanlı, üçüncü bucaqda isə hər gün hamı kimi çörək qazanmaq üçün evdən çıxan, ailə qayğısı yaşayan Hamlet İsaxanlı durur. Nə deyir bu üç şəxsin ürəyinin səsi bir-birinə?!**

İnsanın həyatı, düşüncə aləmi və əməli çoxcəhətli, çoxçalarlıdır, istəsəniz bucaqların sayını artırmaq olardı... İnsan bu cəhətlərin, bu çalarların cəmləşdiyi bir bütövdür. İnsan bir çox keyfiyyətlərin ahəngdar məcmusudur. Bu keyfiyyətlər bir-birini tamamlayır, bir-birinə dayaq durur. Mən riyaziyyatçıyam, fizika-riyaziyyat elmləri və ümumiyyətlə, təbiət elmlərinin nümayəndəsiyəm. Dünyanın ahəngini, nizamını, başına gələnləri duymaq, müəyyən dərəcədə anlamaq imkanına sahibəm. Bu elmləri çox sevirəm, dəlicəsinə sevirəm, bir qız üçün ağlını itirən dəliqanlı kimi, ondan daha çox...Təbiətin adi gözlə görünməyən, adi qulaqla eşidilməyən tərəflərini, səslərini görüb duymaq gözəl deyilmi?!

Şeir və ümumiyyətlə, yazı və ədəbiyyat, musiqi və incəsənət duyğuların xüsusi ahənglə ölçülübbiçilmiş ifadəsidir, içimizdə yuva salan sevinc və kədərdən, həsrət və vüsaldan, həyat və ölümdən qopan, qanad çalıb üzə çıxan zümrüd quşudur. Mayasını sözdən, gözəlliyini duyğulardan, zərifliyini sevgidən, gücünü ağıldan alır şeir. Mən də şeir yazıram, xüsusi məqsəd güdmədən, elə-belə, hisslərim coşanda... Və şeirdən əlavə elm, mədəniyyət, fəlsəfə və təhsil tarixi, humanitar və sosial elmlər də köməyimə gəlir, onlar həyatımı daha da maraqlı, dolu, həm də qaynar edirlər.

O ki, qaldı çörək və ailə qayğısı... burada da məsələ elə sadə deyil. Mən çörək pulu qazanmaq üçün qan-tər içində çalışmıram. Gəncliyimdə məni mənəvi və maddi cəhətdən yaşadan peşəm-riyaziyyat sadəcə peşə deyil, mənim sevgim olub, sevgilim olub, onu sevdiyim üçün onun yanında olmuşam həmişə. Ona o dərəcədə vurulmuşam ki, görünür ki, onun mənə ya yazığı gəlib, az da olsa, mənimlə maraqlanıb, öz lütfünü məndən əsirgəməyib. Bu sevginin mənə verdiyi enerjinin içində yaşamaq üçün və yaşatmaq üçün hər şey vardı. Son 21 il ərzində yolunda ağlımı və ruhumu cəm etdiyim Xəzər Universiteti ideyası və onun ətrafında cəmləşmiş təhsil, elm və mədəniyyət quruculuğu da mənim üçün yeni yaradıcılıq meydanı olub. Bu çətin işlə də sevə-sevə, yolumdan dönmədən, çəkinmədən məşğul olmuşam. Bu yolda dünyanı gəzmişəm, alt-üst eləmişəm, çox maraqlı insanlarla təmasda olmuşam, dünyanı bura, Bakıya gətirməyə çalışmışam. Bu sevgi və bu itməyən, yalnız şəklini dəyişən enerji məni yaşadıb. Gördüyünüz kimi, nə iş görürüksə, onun başında sevgi və yaradıcılıq ehtirası dayanır.

**- Bildiyimiz kimi, həndəsədə iti, düz, kor bucaq var. Cəmiyyət hadisələri hansı bucaq altında daha aydın görünər və onlara hansı bucaq altında daha yaxşı təsir göstərmək mümkündür?**

- Birinci onu deyim ki, həndəsədə, ümumi xalqarası deyilişdən fərqli olaraq, iti, düz və kor bucaqlar yaxşılığa-yamanlığa görə bir-birindən fərqli statusa malik deyillər. Humanitar düşüncənin məhsuludur iti, düz və kor metaforları. Nə isə...

Cəmiyyətdə baş verənləri yaxşı anlamaq üçün bir tərəfdən tarixi inkişafı, bu günə hansı yolla gəldiyimizi nəzərə almaq lazımdır. Axı bu gün dünənin, keçmişin davamıdır, uzantısıdır. Bu gün baş verənlərin səbəbi dünən və əvvəlki günlərdə olan hadisələrdir. Digər tərəfdən isə dünyada, o cümlədən yaxın ətrafımızda nələr baş verdiyini bilməliyik. Çünki təcrid olunmuş ölkə, cəmiyyət, xalq yoxdur. Maraqların kəsişməsi, toqquşması var. Yəni içdən dərin (tarixi) baxış və kənardan baxış bucaqlarının kəsişməsində axtarmaq lazımdır həqiqəti və vəziyyətdən çıxış yollarını. Cəmiyyətə təsir göstərməyin yolu isə cəmiyyətin növündən və yenə tarixdən, yəni ənənədən keçir. Demokratik cəmiyyətlərdə seçki vasitəsi işə salınır. Bu, tam effekt verməsə də, hakimiyyəti daha yaxşı etmək üsulu kimi işə yarayır. Siyasi və intellektual elitin sözü vacibdir. Hakimiyyət uğrunda mübarizə aparmayan zəka sahiblərinin fikri istənilən cəmiyyətdə xüsusi hörmət doğurur.

**- "Bir sadə tütək almaq**
**Və təklik havası çalmaq**
**Keçir ürəyimdən" – sizin misralarınızdır.**

**Birdən hər şeyi buraxıb təkliyə qapananda, iç dünyanıza varanda özünüzü necə tapırsınız? Nə deyir ürəyinizin səsi sizə? Sizcə, yaradıcı insan təkliyə məhkumdurmu?**

- Bəşərin əldə etdiyi uğurlar həm "təkliyə

cuman" insanların, həm də bəlli ideyanı, fikri, planı həyata keçirən kollektiv gücün sayəsində əldə edilmişdir. İ. Nyuton (I. Newton) Londonu bürüyən Böyük Taun vaxtı (1665-ci ilin payızından 1667-ci ilin yazına qədər) Kembric (Cambridge) universiteti bağlandığına görə Londonu tərk etmiş və tamamilə tək qaldığı bu qısa müddətdə ümumdünya cazibə qanununu kəşf etmiş, optikasını və diferensial-inteqral hesabını yaratmışdı! Böyük intellektual kəşflərin çoxu təkliyə qapanmaqla baş tutmuşdur. Şair, yazıçı, rəssam və bəstəkar da tək qalmasa, öz fikirləri ilə yaşamasa, böyük əsərlər ortaya çıxmazdı. Təklik təbiətlə, kainatla, həyatla, ölümlə üz-üzə dayanıb söhbətləşmək imkanı verir. Yaratmaq, yeni şey kəşf etmək ehtirası təbiətin ən qısqanc hissidir, bu hiss insanı tam, başdan-ayağa, bütövlükdə tələb edir. Yarımçıq sevgi, zəif ehtiras yaradıcı insanı tərk edəcək, ağlasan da, yalvarsan da xeyri yoxdur. Bir riyazi kəşf uzun illər zehnimizdə yuva salmış, bilincaltına çökmüş axtarışların üzə çıxan parıltısıdır. Bir şeir fikirdə dolanan bir fikrin, bir misranın qabarması, çəkilməsi, coşması nəticəsində yazılır (təbii ki, əsl şeir nəzərdə tutulur). Bu halda fərqi yoxdur şeir (və ya hər hansı bir növ əsər) necə alındı. Vacib olan şeirin (əsərin) ilhamla yazılması və bir fikir yükü daşımasıdır. Zirvənin əzəməti ilə yanaşı dağ ətəyinin havası və səfası da gözəl deyilmi?!

Yaradıcı insan təkliyə məhkum deyil, möhtacdır. Əlbəttə ki, böyük şahanə əsərlərin bir qismi, məsələn Tac-Mahal, bir ideyadan doğsa da, uzun illər ərzində çalışan çoxsaylı insanların birgə əməyinin nəticəsidir. Bəşərin inkişafı təklikdə və birlikdə görülən işə, hörülən əmələ bağlıdır.

**- Yaradıcı insan hər zaman axtarışdadır. Axtardığınızı tapanda və axtardığınız adi bir gerçəkliyə çevriləndə nə yaşayırsınız?**

- Əslində, sualınızın içində onun cavabı verilib. Sənəti axtarış olan, həyatını axtarışda görən insan axtardığını tapanda sevinəcək və... yeni axtarışa çıxacaq. Ovçu bir dəfə ova çıxmır ki! Onun işi ovçuluqdur. Alpinist zirvəni fəth edir, sanki ruhu göyə yüksəlir, ruhu zirvədə yaşayır, ruhunu orda tapır. O, düz yerdə, adi gerçəklikdə özünü tam xoşbəxt hiss edə bilmir. Bütün çətinliyə, təhlükəyə baxmadan o, yeni zirvə axtaracaq.

**- Sizcə, səmavi və dünyəvi eşqi bir-birindən fərqləndirən xüsusiyyətlər hansılardır? Səmavi eşqdən danışanda dünyəvi eşq gözdən düşürmü?**

- Bütün sevgilər gözəldir. Səmavi eşq Allaha qovuşmaq, Allahı hiss etmək, hissənin tama qayıtması, beləliklə öz yeganə yerini tapmasıdır. Səmavi eşq, müqayisə yerindəsə, alpinistin zirvələrə olan tutqusu, eşqi ilə qarşılaşdırıla bilər. Səmavi eşqin tərənnümü divan ədəbiyyatında mühüm yer tutur, təsəvvüfün (sufizmin) canıdır. Eşq səmavi olsun, ya dünyəvi – qarşısıalınmaz gücdür. Dünyəvi eşq də möcüzə yaradır, insanı göylərə qaldırır, ona ilahi güc bəxş edir.

Səmavi eşqin öz yeri, dünyəvi eşqin öz yeri var. Səmavi eşqə sanki bir kamillik xasdır, yol birdir, təkdir, həqiqətə gedir o yol, o yola düşən yolundan dönmür. Səmavi eşq allahı sevməkdir, son məqsəd əlçatan deyil, idealdır. Dünyəvi eşq başqadır, şirindir, cazibəlidir, vüsal arzusundadır, eyni zamanda insana xas olan yanlışlıqdan da uzaq deyil.

**- "Bu dünyaya nə gətirdim?**
**Bu dünyada nə qoymuşam?**
**Nə bir işi tam bitirdim,**
**Nə həyatdan tam doymuşam..." – sizin "Qədim sual" şeirinizdəndir.**

**Tamamlanmağınız üçün nəyiniz çatmır, Hamlet müəllim?**

Dünya gözəl və mürəkkəbdir. Dünyanın sonsuz sirləri var, daxili bir ahəngə tabedir təbiət, pərdə arxasındadır o ahəng, o harmoniya. Bəzən o pərdəni azca aralamaq, o ahəngi duymaq nəsib olur insana. Təxəyyül və idrakın işbirliyi ilə, kinetik və potensial enerjinin birgə tətbiqi ilə atılır yeni addımlar. Və geniş, gözəl mənzərə açılır ağlımızın gözü önündə. O mənzərəni seyr etmək, duymaq, bununla kifayətlənməyib yeni naxışlar vurmaq, gözəl dünyanı yeni gözəlliklərlə zənginləşdirmək keçir ürəyimizdən, ağlımızdan. Qarşımızda duran ənginliklə müqayisədə indiyə qədər etdiklərimiz necə də azmış...Və yarımçıq qalan işləri tamamlamaq, yeni işlərə başlamaq eşqi bizi səsləyir. Nə istədiyimiz əsasən bəllidir. Hədəfə necə çatmaq istədiyimiz də sirr deyil. Sirr olan bütün bunları nə zaman edəcəyik, gücümüz və vaxtımız çatacaqmı? Mümkündür ki, xoşbəxt anlar yaşayaq, düşündüklərimizin bəzisini həyata keçirə bilək. Bəllidir ki, düşündüklərimizin xeyli hissəsi yarımçıq qalacaq, bir hissəsini isə başlamağa belə macal olmayacaq...

**- Bəs Hamlet İsaxanlı özü bizə hansı sualı vermək istərdi?**

Mənə müraciət etdiniz, suallar verdiniz. Vaxt qıtlığına görə əməlli-başlı cavab verə bilmədim. Deyəsən, cavablar yarımçıq və rabitəsiz alındı. Məni bağışlamaq olarmı?

**"CƏMİYYƏT VƏ DİN"**

***"Cəmiyyət və Din" qəzeti. № 49 (136), 28 dekabr-11 yanvar 2012-ci il, səh. 5 (birinci).***

***№ 01 (137), 12-18 yanvar 2012-ci il, səh. 5 (ikinci).***